# YAP Nərimanov rayon təşkilatı və təşkilatın Gənclər Birliyi Nərimanov rayon ərazisində yaşayan tənha ahılları ziyarət edib





Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyası (YAP) 1 oktyabr - Beynəlxalq Ahıllar Günü ilə bağlı daha bir sosial yardım aksiyası həyata keçirir. Aksiyaya YAP Nərimanov rayon təşkilatı və təşkilatın Gənclər Birliyi də qoşulub. Belə ki, Nərimanov rayon ərazisində yaşayan tənha ahılları ziyarət edilib və onlara yardım sovqatı paylanıb.

YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyevin sözlərinə görə, partiyamız daim müxtəlif layihələr həyata keçirərək qayğıya ehtiyacı olan insanlarla görüşlər keçirir: **"Yeni Azərbaycan Partiyası hər zaman bu cür sosial aksiyalar reallaşdırır. Partiyamızın gənc üzvləri də bu aksiyalarda fəal iştirak edirlər. Bu gün reallaşdırılan ahıl insanlara, aztəminatlı ailələrə sosial yardım aksiyası da dövlətimizin və partiyamızın sosial siyasətini özündə ifadə edir".**



T.Tağıyev belə aksiyaların bundan sonra da davam edəcəyini deyib. Hökumətin və partiyanın həyata keçirdiyi siyasətin humanizmindən, insanpərvərliyindən, insanlara qayğısından xəbər verdiyini deyən təşkilat sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın həyatının yaxşı təşkil olunması üçün istifadə edilsin, o cümlədən də qayğıya ehtiyacı olan bütün insanlar diqqət mərkəzində saxlanılır. Belə tədbirlər dövlətimizin, Prezident İlham Əliyevin siyasətinə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə həyata keçirdiyi layihələrə dəstək xarakteri daşıyır.

Qeyd edək ki, ziyarət olunan ahıl, qayğıya ehtiyacı olan insanlar, belə xeyriyyə aksiyalarının təşkilinin ölkəmizdə aztəminatlı ailələrə göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu söyləyib, onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# YAP Abşeron rayon təşkilatının üzvləri tənha ahıllarla görüş keçiriblər

Dünən Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının üzvləri 1 oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə rayon ərazisində yaşayan tənha ahıllarla görüş keçiriblər.




YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar bütün sahələrin inkişafına, həmçinin kimsəsiz və qayğıya ehtiyacı olan insanların da rifah halının yaxşılaşdırılmasına yönəlib.

Son illərdə aparılan islahatların mühüm istiqamətlərindən biri də ahıl insanların sosial müdafiəsinin gücləndirilməsinə və layiqli həyat şəraitinin təmin edilməsinə hədəflənib.

O həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da sosial cəhətdən həssas olan əhaliyə qayğısından, həmçinin Heydər Əliyev Fondu tərəfindən bu istiqamətdə görülən çox böyük və misilsiz işlərdən bəhs edib.

YAP Abşeron rayon təşkilatının üzvləri aksiya çərçivəsində rayonda yaşayan ahıl, kimsəsiz və qayğıya ehtiyacı olan insanlara maddi dəstək göstəriblər, onların vəziyyəti ilə maraqlanıblar.

Qeyd edək ki, ahıllardan Fəridə Hüseynova, Təzəgül Musayeva, Dilbər Şıxəliyeva, Nübar Rzayeva, Şakir Allahverdiyev, Sahib Abuşov və başqaları onlara göstərilən bu diqqət və qayğıdan məmnunluqlarını ifadə ediblər.





# Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı humanitar aksiya keçirib





Sentyabrın 30-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Gənclər Birliyinin üzvləri 1 oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə rayon ərazisində yaşayan ahıl və tənhalara baş çəkiblər. Xeyriyyə aksiyası çərçivəsində gənclər və partiya fəalları müvafiq kateqoriyadan olan insanlarla görüşüb, onların vəziyyəti ilə maraqlanıblar. Gənclər, eyni zamanda, ahıl və tənhalara ev işlərində köməklik ediblər, təmizlik işləri görüblər.



Bildirilib ki, yaşlı nəslə, xüsusən də ahıllara dayaq durmaq, onlara köməklik göstərmək hər birimizin mənəvi borcumuzdur. Çünki yetişməkdə olan gənc nəslin bu ruhda tərbiyə olunması üçün bunlar vacib şərtlərdən biridir. Həmçinin qeyd edilib ki, Səbail ərazisində yaşayan ahıllar, ağsaqqallar rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bu gün onlar gənc nəslin tərbiyəsində, hərbi-vətənpərvərlik ruhunda yetişməsində böyük rol oynayırlar.

Eyni zamanda, vurğulanıb ki, öz fəaliyyətində daim sosial istiqamətləri prioritet elan edən YAP sosial-iqtisadi inkişafla bağlı davamlı olaraq müxtəlif layihələr həyata keçirir. Belə fəaliyyətlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların və tənhaların daim diqqətdə saxlanılması, onların qarşılaşdıqları problemlərin həllidir. Cənab Prezident İlham Əliyev tərəfindən ahılların sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə çoxlu sayda sərəncamlar imzalanıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da ahılların ən böyük qayğıkeşidir. Onun təşəbbüsü ilə ahıllar, müharibə veteranları ilə görüşlər keçirilir. Onların sağlamlığı diqqətdə saxlanılır.

Ziyarət olunan şəxslər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Onlar qeyd ediblər ki, həyata keçirilən bu cür aksiyalar onların sosial rifahlarının yüksəldilməsinə töhfə verməklə yanaşı, xoş əhval-ruhiyyə yaradır.

# YAP Sumqayıt şəhər təşkilatı Beynəlxalq Ahıllar Gününə həsr olunmuş sosial tədbir keçirib

Dünən Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatı 1 oktyabr - Beynəlxalq Ahıllar Gününə həsr olunmuş sosial tədbir keçirib. YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov bildirib ki, 1992-ci ildə BMT Baş Məclisi tərəfindən "Ahılların müdafiəsi ilə bağlı qətnamə" qəbul edilib. Beynəlxalq Ahıllar Günü ölkəmizdə 1993-cü ildən qeyd olunur. 22 iyun 2001-ci il tarixindən "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvədədir. Həmçinin Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2006-cı ildə "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib. Azərbaycanda yaşlı insanların problemlərinə həssas münasibət bu gün də mövcuddur. Pensiya yaşlı insanların sosial müdafiəsinin gücləndirilməsi **"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır",** - deyən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilir. Həmin islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verir. Bu tarixin beynəlxalq səviyyədə qeyd olunması isə ahıllara diqqət və qayğının artırılması məqsədi daşıyır. Azərbaycanda ahıl insanlara dövlət qayğısı da ildən-ilə artır.



Beləliklə, 1 oktyabr - Beynəlxalq Ahıllar Gününü nəzərə alaraq ahıl insanlar ziyarət edilib. Ziyarət edilən 20 ahıla Yeni Azərbaycan Partiyası Sumqayıt təşkilatı tərəfindən hazırlanmış ərzaq bağlamaları təqdim edilib. Səmimi keçən görüşdə ahıllar öz xatirələrini bölüşüb, ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər. Öz növbəsində aksiya iştirakçıları bildiriblər ki, ahıllara yardım göstərmək, əl uzatmaq, qapılarını döymək, yaşadıqları ünvana üz tutmaq, könüllərini sevindirmək, ürəklərinə ümid işığı səpmək, təsəlli vermək hər birimizin borcudur.





# YAP Qaradağ rayon təşkilatı 1 oktyabr - Beynəlxalq Ahıllar Günü ilə bağlı rayon ərazisində sosial aksiya keçirib





Yeni Azərbaycan Partiyasının (YAP) Qaradağ rayon təşkilatı 1 oktyabr - Beynəlxalq Ahıllar Günü ilə bağlı rayon ərazisində sosial aksiya keçirib.

Aksiya çərçivəsində YAP Qaradağ rayon təşkilatının fəalları rayonda yaşayan ahıl, kimsəsiz və qayğıya ehtiyacı olan insanları ziyarət edib, onlara maddi dəstək göstəriblər.



Aksiyada iştirak edən partiya fəalları bildiriblər ki, sosial dövlət olan Azərbaycanda vətəndaşlara qayğı, onların sosial müdafiəsinin gücləndirilməsi həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətidir. Qeyd olunub ki, ilin əvvəlindən bəri ölkə vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəldilməsinə, onları narahat edən müxtəlif sosial məsələlərin həllinə yönələn çoxlu sayda Fərman və sərəncamlar imzalanıb. Bu sırada şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsi, problemli kreditlər məsələsinin həllini tapması, bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi, əməkhaqlarının, pensiyaların, tələbə təqaüdlərinin, müavinətlərin artırılması və digər bu qəbildən olan tədbirlər bir daha sübut edir ki, Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşının mənafeyi dayanır.

Xüsusilə qeyd olunub ki, öz fəaliyyətində hər zaman xalqımızın maraqlarını rəhbər tutan, cəmiyyətdən gələn sosial sifarişlərə uyğun çoxsaylı layihələr reallaşdıran Yeni Azərbaycan Partiyası da Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi siyasətə dəstək verir, bu siyasətin daha uğurlu nəticələr verməsi üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Bütövlükdə rayon təşkilatının fəalları 10-dan çox ailəyə baş çəkib, onlara yardım göstəriblər.

Sözügedən ailələr və rayon ictimaiyyəti YAP-ın bu təşəbbüsünü yüksək qiymətləndirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

# YAP Nəsimi rayon təşkilatı 1 oktyabr - Beynəlxalq Ahıllar Günü münasibəti ilə xeyriyyə aksiyası keçirib





Azərbaycan xalqının mədəniyyətində və milli dəyərlərində böyüklərə hörmət, xüsusilə ağsaqqallara və ağbirçəklərə diqqət, qayğı və sevgi ən əsas dəyər kimi təbliğ edilir. Böyüklərə hörmət insan əxlaqının və tərbiyəsinin ana xəttini təşkil edir. Bu dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması ilə bağlı Heydər Əliyev Fondu çox böyük və misilsiz işlər görür. Dünyada bu dəyərlərin təbliği məqsədilə BMT hər il 1 oktyabr tarixini Beynəlxalq Ahıllar Günü kimi qeyd edir. Yeni Azərbaycan Partiyası da bu ənənələrə sadiq qalaraq hər il bu gün münasibəti ilə ümumrespublika tədbirləri həyata keçirir.



Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı bu münasibətlə dünən rayon ərazisində yaşayan qayğıya ehtiyacı olan ahıllara baş çəkib, onları ehtiyacları olan zəruri ərzaqla təmin edib.